# Yaradıcı gənc Mehdi Abbasov







Mehdi Abbasov gəncdir. Soltannuxa kəndində yaşayır. Cəmi 21 yaşı var. Atasını kiçik yaşlarında itirib. Evdar qadın olan anasının və böyük qardaşının himayəsində böyüyüb. 2012-ci ildə kənd tam orta məktəbini bitirib Qəbələ Turizm və Otelçilik üzrə peşə tədrisi mərkəzinə daxil olub. Burada ofisiant, bufetçi-barmen peşələri üzrə birillik təlim kursunu bitirib. Hazırda bufetçi işləyir. Öz peşəsini sevir. Dediyinə görə sənəti ilə yanaşı rəssamlığa, musiqiyə, milli tətbiqi sənətə, bir sözlə mədəniyyət və incəsənətin ayrı-ayrı növlərinə xüsusi marağı var.

Mehdi Abbasov hazırda boş vaxtlarında tətbiqi sənət əsərlərinin yaradılması ilə məşğul olur. Kibrit çöplərindən müxtəlif maketlər yaradır. İlk əl işi postament üzərində maraqlı dizaynla öz ad və soyadının maketini yaradıb. Bu yaradıcılıq nümunəsini Qəbələ Rayon Rəsm Qalereyasının yaradılmasının 10 illiyinə həsr olunmuş sərgidə nümayiş etdirib. İlk yaradıcılıq nümunəsi maraqla qarşılanıb. Sonralar kibrit çöplərindən öz evlərinin, rayon icra hakimiyyəti binasının maketini yaradıb. Rayon İcra hakimiyyəti binasının maketinə 2.400 kibrit çöpü sərf edib. Hazırda kəndin panaramasının yaradılmasına səy göstərir və bu maketin üzərində çalışır. Gələcək yaradıcılıq planında müasir gəmi maketi və bir sıra başqa maketlər üzərində çalışmaq niyyətindədir.

**«Qəbələ».**

# Müdrik sözlər toplusu xəzinəsindən

✦Vicdanı itirmək və ictimai qınaq Allahın qəzəbinə bərabərdir.

✦Cahillər özləri-özlərinə axmaq dostdurlar, kamillər isə özləri-özlərinə ağıllı düşməndirlər.

✦Çəkməsən ürəyinin çəfasın, görməzsən onun vəfasın.

✦Kamillik dahilikdir, dahilik isə zirvəlik.

✦Ölüm qaşla-gözün arasında olan məsafədədirsə, məhəbbət də nifrətin bir addımlığındadır.

✦Sağlam zəkalı şüur, zərrəbin dediyimiz cihaza bənzər.

✦Qadın kişinin vüqarıdır. Kişi isə qadının gururudur.

✦İsmətli və etibarlı qadın evin xəzinəsidir.

✦Adam odur ki, etdiyi səhvə hamıdan qabaq, özü gülməyi bacarsın.

✦Xislətində paxıllıq və xof olanlar gülməkdən qorxurlar.

✦Qəlbində paxıllıq olmayıb, başqasının uğuruna sevinmək ən böyük kamillikdir.

✦Öz-özünə kömək etməyi bacarmayana kömək etməyin mənası yoxdur.

✦Özünü say ki, səni də saysınlar.

✦Mədəniyyət və incəsənət, fitri istedadın şah evi, mənalı saf həyatdır.

✦Həyatda peşkeş verilməyib qazanılan altı amil var: Həyat, etibar, qələbə, səbr, sevgi və halallıq.

✦Hörmətsizlik və etibarsızlıq, alışmayıb tüstülənən ocağa bənzər. Çünki, isinmirsən istisinə, kor olursan tüstüsünə.

✦Kədəri bölərsən çoxalar, sevinci bölərsən azalar.

✦İşləməkdən qorxma, itirilməkdən qorx.

✦Əsl vicdanlı və etibarlı adam o olar ki, özünə hesabat verməyi bacarsın.

✦Adamları yaşadan üç amil var: xoş əməlləri, sənəti və övladları.

✦Çalıb-çapmağa çalışıb tapmaq demirlər.

✦Sənət çılğınlığı, şıltaqlığı sevmir. O ancaq keyfiyyəti, səbri və sadəliyi sevir.

**Teymur ƏHMƏDOV,**
**Tüntül kəndi.**

# Kartof sərfəli qida məhsuludur

Son illərdə kartofçuluq təsərrüfatı rayonumuzda kənd təsərrüfatının ən mühüm və gəlirli sahələrindən birinə çevrilib. Kartof sərfəli qida məhsulu olduğuna görə kəndlilər bu bitkinin əkin sahələrini ildən-ilə genişləndirir və bol məhsul götürmək üçün elmin qabaqcıl təcrübəsindən maksimum istifadə edirlər. Bu il də əvvəlki illərdən fəqli olaraq kartof əkin sahələri xeyli genişləndirilib.

Rayon dövlət statistika idarəsindən redaksiyamıza daxil olan məlumata görə cari ildə rayon üzrə «1000 hektardan çox sahədə kartof əkini aparılmışdır. Bu, 54 hektar keçən ilə görə çoxdur. Kartof ən çox rayonun Əmirvan, Bayramkoxalı, Yenikənd, Kürd, Zalam, Yeni Dizaxlı kəndlərində, Nic və Vəndam qəsəbələrində daha çox əkilir. Hazırda digər qəsəbə və kəndlərin əhalisinin əksəriyyəti kartofçuluqla məşğuldur. Ötən il həmin kənd və qəsəbələrin əhalisi və «Gilan» MMS-nin aqrar sektorunun kollektivi kartofçuluğun inkişafına, məhsul istehsalının artırılmasına xüsusi əhəmiyyət verdikləri üçün 1000 hektara yaxın əkin sahəsindən 13.908 ton kartof toplanmışdı. Bu da kartof əkini ilə yaxından məşğul olan hər ailənin kartofa olan ehtiyacını kifayət qədər təmin etmişdir. Bu il kartofçuluqla məşğul olan əməkçilər azı 15 min ton kartof istehsal etmək uğrunda mübarizə aparırlar. Onlar hazırda becərmə işlərini mütəmadi aparır, zərərvericilərə qarşı tədbirlər görürlər.

**A. CƏLİLOV.**


## «Qəbələ» qəzetinə

**2016-cı ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


## ELANLAR

Qəbələ rayon Bılıx kənd sakini **Nəsirov Araz Əlimirzə oğlunun** adına verilmiş 048012 №-li Müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestri tərəfindən Mıxlıqovaq kənd sakini **Abdullayev Nurlan Oqtay oğluna verilmiş** reyestr nömrəsi 406013013045, qeydiyyat tarixi 17.07.2013, qeydiyyat nömrəsi 1913005600, seriya RX № 0183323 olan **Çıxarış** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayonu Bum qəsəbəsində yaşayan **Abdullayev Seymur Hikmət oğluna** məxsus B kateqoriyalı 26.09.2015-ci il tarixdə verilmiş AC 336362 №-li **sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

FHN-nin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Ramiz Əşrəfova**, qaynanası

**NARINGÜL XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başlağlığı verirlər.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.